**Solmaz Amanova**



# TURAC



«Azərbaycan nağılı».
Rəssam Səttar Bəxlulzadə.



# TURAC

84.2(5Aze)-5
A67

### 1-Cİ SƏHNƏ



**XANIM:**



Hara itmisən, hara?
Turac, gəl get bazara.
Alma, armud, nar al, gəl,
Şam, badam, nə var al, gəl.
Qız, sənin yansın canın,
Bayram gəlib ev boşdur
Bəlkə sənə bu xoşdur?
Nə paxlava, qoğal var,
Nə də şəkərburalar.
Bişməyibdir biri də,
Günlər qalıb geridə.
Darayıb, hörürsən saç,
Götür zənbili, tez qaç.



«Yaz bazarı». Eyyub Məmmədov.

**TURAC:**

Xanım, elədim unu,
Lap tez elədim bunu.
İslatmışam mayanı,
Yox o yanı, bu yanı.
Pul ver, bazara gedim,
Tez alış-veriş edim.

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 60688
2018 Vond.





## *2-Cİ SƏHNƏ*

***1-ci SATICI:***



Qəbələdən alma var,
Qızıləhməd adlanar.
Üstünə sərdim saman,
Ah, ətirlidir yaman.

***TURAC:***

Xonça üçün ver bir az,
Xeyirli olsun bu yaz.

***SATICI:***

Gözlərin görməsin yaş,
Nəğmə de yavaş-yavaş.

*(Ona qırmızı almalar verir).*

***NƏĞMƏ:***

«Almanı atdım xarala,
Qaldı sarala-sarala».

***TURAC:***

Çox dadlıdır bu alma,
Almanı yerə salma.



***2-ci SATICI:***

Üç badam, bir qoz, üç badam, bir qoz.

***TURAC:***

Çək, bir kilo hərəsindən,
Görməmişəm beləsindən.

***3-cü SATICI:***

Sehrli buğda bitər lap daşda,
Al səmənini, bayrama başla.



*(«Səməni» mahnısı.
Turac səmənini alıb başına qoyur).*





***4-cü SATICI:***



Lənkəranın dadlı çayı,
Yoxdur heç bir yerdə tayı.
Qıza, iç mənimlə çay,
Xanıma da apar pay.



*(Satıcı «Çay» mahnısını oxuyur.
Başqaları xorla nəqarətini oxuyurlar).*

***5-ci SATICI:***



Halva gəlibdir Şəkidən,
Narahat olma çəkidən.
Bu şirniquş, dadı gözəl,
Xoruz kimi dimdik gəzər.



*(Satıcılar Rəşid Behbudovun
«Halvaçı» mahnısını oxuyur).*

***TURAC:***





Xoruzlar döyüşür, bax,
Bu tənbəldir, o qoçaq.

***6-cı SATICI:***



Ordubadın kişmişi,
Gəlib göydən düşmüşü.
Əriyi sapsarıdır,
Bağçaların barıdır.





*(Pəhləvan döyüşü).*

Pəhləvana yaxşı bax,
Varmı onuntək qoçaq?

***TURAC:***

Sağdakı yıxıldı, vay,
Yoxdu bir verən haray.






Rəssam Rəna Tağıyeva.

*7-ci SATICI:*





Abşeronun zəfəranı,
Salamat eləyər canı.
Əncirinin dadı gözəl,
Tut quş dimdiyində gəzər.



*(Satıcı Turacı tut qurusuna qonaq edir. Qız şam və zəfəran alır. Satıcılar «Tut ağacı boyunca» mahnısını oxuyur. Bir satıcı nəqarətini oxuyur).*

*8-ci SATICI:*




Yun çubuğu, süpürgə,
Gəl al, sandıqla birgə.
*(Səhnədən qışqıra-qışqıra gedir).*

*9-cu SATICI:*

Yumurta var Mərdəkandan,
Heç bir yerdə yoxdur ondan.



*ALICI:*



Qabığı sındırır diş,
Bu çiydir, yoxsa bişmiş?

*(Dişinə vurur).*



*SATICI:*

Görürsən, bu yumurtanı,
Yavaş vur, çıxmasın canı.

*ALICI:*

Bir buna bax, sanki daş,
Vur, amma yavaş-yavaş.

*10-cu SATICI:*

Tərxun, keşniş, əvəlik,
Qaşqaldaq, ördək, kəklik.







*11-ci SATICI:*

Göyçayın şirin narı,
Bundan gəl al, qız, barı.



«Narlı». Şirvan qrupu.




«Çiçəklənən nar». Rəssam Tahir Salahov.

*(Turac nar alır, satıcılar «Çiçəklənən nar» nəğməsini oxuyur).*

*12-ci SATICI:*



«Kütüm». Nizas Məmmədov.

Üzümə bax, üzümə,
İşıq salır gözümə.
Bu balıq Salyandandır,
Al, göz nuru, dərmandır.
Camış südü, nehrə yağı,
Ye, kef eylə, bayram çağı.




*(Turac üzüm, süd, balıq alır).*

*13-cü SATICI:*

Vətən bağı al-əlvandır.




*(Satıcı «Xarıbülbül» mahnısını oxuya-oxuya, gül satır. Turac gül alır).*

*14-cü SATICI:*

Şəbəkəli zərli daraq,
Saçları eləyər parlaq.



*TURAC:*

Xanımın darağı yox,
Zəri olsun həddən çox.

*15-ci SATICI*



Bu sarımsaq, dadı acı,
Min bir dərdin o əlacı.
Əz, qat xingələ, xaşa,
Xəstələnmə, çox yaşa!



**16-cı SATICI:**



Qarabağdan xalı var,
Sarayların malı var.
Naxışları qaranquş,
Ləl例kdən yüngül olmuş!



*«Ləmpa».*
*Qarabağ.*

**ALICI:**



Kim atdı bura papaq?
Onu atanı tapaq.

**TURAC:**

Kosa ağac dalındadır,
Keçisi də yanındadır,
Heç kəs heç nə oyrətməyib,
Biclik onun canındadır.



*«Bayram tonqalı».*
*Rəssam Firuzə Sultanzadə.*

*(Kosa və Keçəl çıxır.*
*Hamı «Kosa və Keçəl»*
*şeirini oxuyur, «Yallı» gedir).*







## KOSA VƏ KEÇƏL

**Xor:**

– Ay Kosa-Kosa, gəlsənə,
Mahnı deyib gülsənə.
Bizə Novruzu, bir də,
Keçəli gətirsənə.

**Xor:**

– Ay Kosa-Kosa, yaz hanı?
Vətən gözləyir onu.
Quşlar nəğmə deyirlər,
Güllər geyib al donu.



**Kosa:**

– Mən Kosayam, Kosayam,
Bir kasa bozbaş verin.
Keçəl yeyib nə varsa,
Mənsə acam, aş verin.

**Keçəl:**

– Kosa-Kosa, can Kosa,
Mən Keçələm, sən arı,
Xonçanı yemişik biz,
Axı yarıbayarı.





**Kosa:**

– Mən Kosayam, şən Kosa,
Keçəl, sən də yarasa.
Sən həm bicsən, həm də tox,
Amma ki, papağın yox.

**Keçəl:**

– Ay Kosa-Kosa, can Kosa,
Şeh düşübdür başıma.
Papağını götürmə,
Ver Keçəl qardaşına.



**Kosa:**

– Mən Kosayam, Kosayam,
Ayaqlarım yalındır.
Sən bir eşşək tapmısan,
Gönü yaman qalındır.

**Keçəl:**

– Ay Kosa-Kosa, can Kosa,
Bir çön sən bax bu qıza.
Gətir qazan və çömçə,
Həm də yemək bir nimçə.



**Kosa:**

– Mən Kosayam, Kosayam,
Baxım tapdığın qıza.
Lap oxşayır keçiyə,
Onu aldın neçəyə?



**Keçəl:**

– Ay Kosa-Kosa, can Kosa,
Sən tap gətir, yekə qaz.
Onu yaxşı bişirək,
Mən çox yeyim, sənsə az.







«Yaz». Rəssam Xalidə Səfərova.

*Bahar:*

– Ay Kosa, can ay Keçəl,
Gəlin mənə verin əl.
Birgə «Yallı» gedəyin,
Eli dəvət edəyin.



«Yallı». Qobustan.









## 3-CÜ SƏHNƏ

*TURAC:* *(Birdən xanım yadına düşür, başına döyüb, deyir).*

Öldürəcəkdir xanım,
Vursa, çıxacaq canım.

*(Evə qayıdır).*





## 4-CÜ SƏHNƏ

*XANIM:*

Canın yansın, ay Turac,
Odun gətir, qızsın sac.
Tez ol, tik mənə paltar,
Gör, nə qədər işin var.
Bir umaclı halva çal,
Bayrama bircə gün var.



Turac qaçır, zənbilləri qoyur, xəmiri yoxlayır. Xanımın əynini ölçüb, parçanı kəsir. Sini götürüb, ortasına səməni qoyur. Sonra ətrafına qoz, fındıq, əncir və tut qurusu töküb, xonça bəzəyir. Süfrə açır, birdən yadına zərli daraq düşür.

*TURAC:*

Xanım, daraq almışam,
Öz saçıma taxmışam.

*XANIM:* Görməmişsən, görməmiş,
Bəzəndin oldun çəpiş.

*(Xanım hirslə darağı Turacın başından çıxarıb, güzgünün qabağında öz başına taxır).*



Ay qız, Turac, çay gətir,
Xəmiri tez elə, qat.
Kim deyibdir ki, evdə,
Get, başını atıb, yat?

*TURAC:* Bazardan gəlirəm mən,
Yatmamışam, ay xanım.
Bu saat xəmir qatıb,
Çay dəmləyərəm, canım.

*XANIM:* Pəncərəni bağla qız,
Gəlir ağlamaq səsi.
O ağlayan kimdirsə,
Kəsiləcək nəfəsi.



*«İnnabı rəng bizə məxsusdur».*
*Rəssam Əzim Əzimzadə.*



*TURAC:* Kəndli qızı döyürlər,
Tacir cırır donunu,
Hamı durub bu işin,
Gözləyirlər sonunu.

*XANIM:* Kəs səsini, hər işin,
İçindən çıxır başın.
Çay gətir, danışmağa,
Hələ çatmır ki, yaşın.

*(Odunçu «Pəncərədən daş gəlir» adlı xalq mahnısını oxuyur).*

*(Turac xanıma çay gətirir, xəmiri kündələyib, üstünü örtür. Xanım mütəkkəyə dirsəklənib qarşısındakı xonçadan alma götürüb yeyir).*

*XANIM:* Bayquş kimi ulama,
Ocağı bərk qalama.
Gəl, ovxala canımı,
Dırnaq vur, aç saçımı.
Oxuma, cırdır səsin,
Yox bir işə həvəsin.
Üzümə elə massaj,
Sonra da ki, makiyaj.

*(Xanım xoşhallanıb, mürgüləyir. Turac onun başındakı darağı çıxardır, boxçaya qoyub, sandıqda gizlədir. Sonra başına dırnaq vurur, üzünü makiyaj edir, ocağa yaxınlaşıb qəhvədanı götürür. Xanımın xorultusu gəlir).*

***TURAC:*** Yuxuya getdi xanım,
***(yavaşdan)*** Əlindən bezib canım.

*(Turac şəkərbura bükə-bükə oxuyur).*






## TURACIN NƏĞMƏSİ

Kürüm, ay Kürüm,
Göz yaşım axır.
Anamçün mənim,
Ürəyim yanır.



«Turac».
Rəssam Sakit Məmmədov.



Qamışlar şax-şax,
Külək oyanıb.
Turaclar bax-bax,
Başın qaldırıb.



Kürüm, ay Kürüm,
Qalxdım mən bəndə.
Oxu, bülbülüm,
Sevinim mən də.

*(Odunçu muğam oxuyur).*





«Kür». Rəssam Nizas Məmmədov.

***XANIM:***
***(oyanır)***

Mən yatanda qız, sən sus,
Paltarımı ver, quduz.
Oxuma bu nəğməni,
Hirsləndirirsən məni!
Dayanma, yansın canın,
Yuyulmayıb fincanım.
Başımı yu, gətir su,
Yuxum da, quş yuxusu.

***TURAC:***
Qızdırmışam otağı,
Burdadır su bardağı.



***XANIM:***
Darağımı ver, Turac,
Ac nəsildənsən, sən ac.



*Əminə Dilbazi.*

***TURAC:***
Haradasan, ay daraq,
Nə olar, ver bir soraq.
Allah, mənə kömək ol,
Quş eylə, uçurt məni.
Götür, bu cəhənnəmdən,
Çöllərə qaçırt məni.

*(Turac quşa çevrilir. Darağın yeri, yadına düşür, pəncərədə oturub, xanıma darağın yerini deyir).*

***TURAC:***
***(quş)***
Tax-tax, daraq boxçada,
Boxça da ki, taxçada.



***(«Turacı» rəqsi).***





KITABXANA
İNV. № 60688

***Rəssam Rəna Tağıyeva.***

# TURAC

*(Turan bacıma ithaf edirəm)*

*Ürkək-ürkək gəzən quş,*
*Muğan elinə bir tac.*
*Qorxudublar, eləmi,*
*Ağlama gəl, ay Turac.*

*Azərbaycan nağılında,*
*Söylənir ki, qız olmusan.*
*Xan evinin qulluqçusu,*
*Bütün işvə-naz olmusan.*

*Cana gəlib əzablardan,*
*Darağı da itirmisən.*
*Arzulayıb, quş olmağı,*
*Göyə pənah gətirmisən.*

*Səmalarda süzən zaman,*
*Yadına düşübdür taxça.*
*İçinə daraq qoyduğun,*
*Taxçadakı zərli boxça.*

*O gün, bu gün səhərədək,*
*Nəğmə deyirsən bağçada.*
*Nəğməni eşidir hər kəs:*
*«Tax-tax, daraq boxçada,*
*Boxça da ki, taxçada!»*







«TURAC»

**«İnsan iz qoyur» seriyasından**
**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**tərəfindən təsdiq edilmişdir**
**(13.01.2005-ci il №46-22-184/16)**

«Türac» nağılı 2 sinifdə sinifdənxaric oxu üçün nəzərdə tutulub.
Nağıla əlavə kimi verilir: iş dəftəri «İRS-2»,
müəllimlər üçün metodik vəsait «İRS» 1-2-ci siniflər
üçün və multimediya diski.

***Müəllif:*** Amanova Solmaz Bayramqulu qızı.

***Tərcüməçi:*** Sevinc Nuru qızı, uşaq yazıçısı.

***Kompyuter səhifələyicisi:*** Frolova Aelita, Babayeva Şəhanə.

***Üz qabığında:*** «Turac bazara qedir». Rəssam Rəna Tağıyevə.
«Turac». Rəssam Sakit Məmmədov.

Amanova Solmaz Bayramqulu qızı.

«TURAC». 20 səh., Bakı, 2009.

Çap «OSKAR» NPM-nin mətbəəsində
Tel: 430-23-10, 430-23-20
Format : 64/92, 1/25. Tiraj: 1000. Sifariş № 940



